# "Qızıl səs" medalının sahibi Süleyman Abdullayev haqqında tələsik yazı

**İlk tanışlıq. Məktəb illərində yay tətili zamanı bizim istirahətimiz Füzuli rayonunun Yağlıvənd kəndində keçərdi. Dərslər bağlanan kimi Orucəli babamla, Gözəl nənəm Şükürbəyli kəndinə gələr və bizi özləri ilə Yağlıvəndə aparardılar. Biz bir də dərslərin başlanmasına bir neçə gün qalmış geriyə dönərdik. Hər il bax beləcə, istirahətimiz və uşaqlıq çağlarımız Yağlıvəndlə bağlı olardı.**

Növbəti illərin birində, daha dəqiqi 1968-ci ilin isti iyun günündə dayımın oğlanları Sehran və Sərvanla onların evlərinin sərin eyvanında oturub dama oynayırdıq. Evin dirəyindən bir radio asılmışdı. Bu radio heç zaman söndürülməzdi, səhərdən gecə yarısınadək dünyanın hər yerindən xəbər verərdi. Biz də radionun musiqili, ədəbi-verilişli səhnələrinin müşayiəti altında öz işimizdə olardıq. Belə çal-çağırlı məqamların birində radiodan diktorun səsi eşidildi:

-Hörmətli dinləyicilər, konsertimizə başlayırıq. Oxuyur Süleyman Abdullayev!

Diktorun bu elanı dayım uşaqları arasında bomba kimi partladı. Hər ikisi birdən ayağa qalxdı və üzlərini həyətdə meyvə yığan analarına tutub sevincək qışqırdılar:

-Minə, tez gəl, Süleyman dayı oxuyur!

Uşaqlar analarını sadəcə olaraq adı ilə çağırırdılar. Minə bibi tələsik yuxarıya qalxıb dirəyə söykəndi. Radiodan pərvazlanan mahnı dalğa-dalğa ətrafa yayılıb xoş bir ovqat yaratdı:

**Olaram dərdə həmdəm,**
**Səni qəmli görəndə.**
**Aşiqini üzər qəm,**
**Səni qəmli görəndə**

Heç kim cıqqırını çıxarmadan radiodan yayılan mahnının şirinliyinə qulaq kəsilmişdi. Minə bibi isə gizlincə ağlayırdı. Mən onun yanaqlarından üzü aşağı sellənən göz yaşlarını gördüm. Biz bu mahnının ovsununda ikən müğənninin oxuduğu segah təsnifi ovqatımızı daha da rönəqləndirdi:

**Heçdir deyərəm sevgisiz insan mənə qalsa,**
**Cansızlara da bəxş edərəm can mənə qalsa**

Bu səsdə dünya boyda sevinc vardı, fərəh vardı. Sevən bir aşiqin məhəbbətlə döyünən ürəyinin çırpıntısı eşidilirdi bu avazda. Bu səsdə hatəmlik vardı, alicənablıq vardı. Bu səs ilk andaca eşidənləri ovsunlayır, onların qəlbində gələcəyə inamı gücləndirir, saf sevgi toxumunu cücərdirdi:

**Məclisdə qızıldan baha söz söyləməsən, sus,**
**Boş sözlərə də verməyərəm imkan, mənə qalsa...**

...Elə ordaca öyrəndim ki, Süleyman Abdullayev Minə bibimin qohumudur. Yeri gəlmişkən deyim ki, Minə bibi əsl azərbaycanlı qadınlarına xas olan bütün insani keyfiyyətləri özündə cəm edən ziyalı idi. Şərəfini və ləyaqətini hər şeydən üstün tutan bu insanda qız-gəlinlər üçün örnək ola biləcək insani hisslər cəmləşmişdi.

Minə bibi Sərdarlı kəndindən idi. 1946-cı ildə dayım Heydər Orucəli oğlu ilə ailə həyatı qurmuş və ömrünü Yağlıvənd kəndinə bağlamışdı. Tale bu ailəyə 4 oğul, 5 qız (indi qızlardan biri Ofelya dünyasını dəyişmişdir. Allah ona rəhmət eləsin!) vermişdi. Bu övladlar Minə bibinin həm də qardaş-bacıları idi. Ona görə ki, Minə bibinin övladlarından savayı demək olar ki, heç kimi yox idi. Onun həyatda ən yaxın qohumu Süleyman Abdullayev idi. Əslində isə onların arasında qardaş-bacı münasibəti vardı.

Minə bibidən Süleyman Abdullayev haqqında eşitdiyim ilk sözlər bu oldu: ”O, tay-tuşlarından fərqlənirdi. Oynamağı xoşlasa da, ədəbiyyata, incəsənətə aid kitabları oxumaq həvəsi ondan da güclü idi. Uşaq vaxtlarından evlərinin dirəyindən asılmış radionun yanından əl çəkmirdi. Oxunan hər bir mahnını və muğamı heyranlıqla dinləyirdi. Musiqiyə o qədər bağlıydı ki, özünü bunsuz təsəvvür edə bilmirdi”.

Süleyman Abdullayevin bal kimi səsini dinlədikcə fikrimdən keçən bu oldu: ”İmkanım olsaydı Süleyman Abdullayevin səsini qaldırardım göyün yeddinci qatına və oradan da səpərdim yer üzünə... O səs də doları insanların qəlbinə, ürəyinə, gözünə...”

Onda mənim 11 yaşım vardı. Mənim Süleyman Abdullayevlə tanışlığım bax beləcə başladı.

**Söz ardı:** Süleyman Abdullayev dünyanın özü qədər qədim olan, öz tarixi, maddi-mədəniyyət abidələri, bənzərsiz coğrafiyası, zəngin ədəbiyyatı, çeşidli incəsənəti və təkrarsız musiqi sahibliyi ilə dünyada tanınan Qarabağda, Qarabağın dilbər guşələrindən biri olan Füzuli rayonunda dünyaya göz açıb. Onu böyük sevgilərlə oxşayan, ona həyat verən ilk dünyası Sərdərli kəndi olub. Doğulduğu yerin havası ilə dünyanı tanıyıb. Damarı Sərdərlidə bərkiyib. İməkləyib, yerimək üçün əvvəl-əvvəl torpağa dirsəklənib dikəlib.

Ağlı kəsəndən sonra yoluna iz qoyub çəhlim aça-aça, çəmənliyinə üz qoyub çiçəklərini quca-quca dolandı Ana Yurdun başına. Ana Yurdun minbir gözəlliyinə, vüqarlı dağlarına, qıjıltıyla axan çaylarına, pıçıltıyla ötən bulaqlarına, əsrarəngiz ormanlarına, zümrüd meşələrinə baxdıqca fərəhləndi, qürur duydu. Gördüklərini gözünə-könlünə yığa-yığa, eşitdiklərini beyninə həkk edə-edə fəxarət hissi keçirdi. Bu torpaq dizinə taqət, qoluna qüvət, gözlərinə nur verdi onun. Sinəsindən pərvazlanan şirin melodiyalar yayıldı Azərbaycan boyda yer üzünə, sonra isə dünyanı başına götürdü...

Sərdarlıdan pərvazlandı, burdan arzularının arxasınca müəyyən səmtlərə üz tutdu.

Dünyanın bir çox yerlərini gəzdi, Azərbaycanın ecazkar səsli xanəndəsi kimi- olduğu ölkələrdə də hörmət və ehtiramla qarşılanırdı. Hara getdisə, harda oldusa ilk xatırladığı məkan da doğma Vətəni oldu. Elə ən yaxşı uğurlarını da Vətənini düşünəndə qazandı.



Süleyman Abdullayev ürəyində Azərbaycanımızın gəzdirən vətəndaşdır. O, haqlı olaraq qeyd edir ki, ”damarında azərbaycanlı qanı axan hər bir insan bütün varlığıyla dərk etməlidir ki, dünya burdan-hər kəsin evindən başlayır. Torpağında addımladığı, qoynunda gəzdiyi həyət-bacadan başlayır”. Süleyman Abdullayev üçün Vətən yalnız sərhəd dirəkləri ilə əhatələnən adi torpaq parçası deyil. Vətən onun üçün əcdadımızın, ulularımızın bizə əmanət qoyub getdiyi müqəddəs bir məkandır. Biz bu məkanı canımızla-qanımızla qoruyub saxlamalıyıq. Onun fikrincə ”biz ona görə Vətənə Ana deyirik ki, Anamızın da anası Vətəndir”.

### *Süleyman Abdullayev*

bütün canıyla, qanıyla doğma yurduna, elinə-obasına, ana vətəninə, bütövlükdə sevimli xalqına bağlı bir xanəndədir. Elə buna görə də onun repertuarı bir qayda olaraq Vətən və Vətənpərvərlik mövzuları ilə pərvəriş tapmışdır. Onun fikrincə vətənpərvərlikvətən sevgisidir. Lakin yeri gəldi-gəlmədi vətən ifadəli mahnıları oxumaq, bu məzmunda şerlər yazmaq, hələ vətəndaş, vətənpərvər olmaq demək deyil. Bunun üçün bütün varlığınla doğulduğun yurda, bu yurdun insanlarına bağlı olasan gərək.

### *Tərcümeyi halından*

Süleyman Cümşüd oğlu Abdullayev 1939-cu ildə Füzuli rayonunun Sərdərli kəndində anadan olub. 1959-cu ildə istedadlı musiqiçilər sorağıyala Füzuli rayonuna gələn böyük xanəndə Seyid Şuşinski S.Abdullayevin sdəsini yüksək qiymətləndirmiş və professional təhsil almaq üçün Bakıya dəvət edilmişdir. 1960-64-cü iilər ərzində S.Abdullayev ADMMdə Seyid Şuşinskinin sinfində bütün muğam dəstgahlarını tam şəkildə öyrənmişdir.

1964-cü ildən M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi fəaliyyətə başlamış, xalq çalğı alətləri ansamblları ilə çalışmışdır.

1969-cü ildə Türkiyənin İstanbul şəhərində keçirilən Ümumdünya festivalının qalibi olmuşdur.

S.Şuşinskinin ənənələrini yaşadan xanəndə, eyni zamanda, özünəməxsus ifaçılıq üslubu, oxuma tərzi, bir çox muğamların yaddaqalan təfsiri ilə tanınır. S.Abdullayev zəngin tembrli, yüksək tessituralı səsə malik xanəndədir. O, ifa etdiyi muğamda sözün düzgün tələffüzünə, qəzəlin mənasının dinləyiciyə çatdırılmasına çalışır. S.Abdullayevin ifasında ”Segah”, ”Çahargah”, ”Şur”, muğam dəsgahlarının lent yazıları Azərbaycan Teleradio fonduna daxil olmuşdur. Xanəndə oxuduğu muğamlarda klassik şairlərin -Füzulinin, S.Ə.Şirvaninin, Vahidin, S.Rüstəmin qəzəlləriunə müraciət edərək xüsusilə vətən haqqında şeirlərə üstünlük verir. Öz sənəti ilə böyük bir elin müdrik ağsaqqalı kimi sevilən xanəndə xalq tərəfindən ”Dədə Süleyman” -deyə çağrılır.

H.Zərdabi adına Dünya Azərbaycanlıları Xeyriyyə Cəmiyyətinin ”Qızıl səs” medalına layiq görülmüşdür.

**Söz ardı:** S.Abdullayevin bənzərsiz səsinə, musiqi duyumuna doğulub boya-başa çatdığı Füzuli rayonunun gözəl təbiəti, saf iqlimi böyük təsir göstərmişdir.

### *Bu bir həqiqətdir ki,*

Qarabağda doğulan, bu torpağa dirsəklənib ayağa qalxan, bu torpağın suyunu içən hər bir kəsin qəlbində harda yaşamasından və işləməsindən asılı olmayaraq incə musiqi notları pöhrələnir.

S.Abdullayevin nəfəsindən süzülüb ölkəmizi, eləcə də dünyanı dolaşan melodyalarında özünün tarixi, mədəniyyət abidələri, zəngin ədəbiyyat və incəsənəti, musiqi mədəniyyətini cəm edən Azərbaycanın qədimliyi, Qarabağın şirinliyi var. O istər segah oxusun, istər təsnif, istərsə də mahnı-fərq eləməz, onun səsində bir xısma, bir ovuc, bir qətrə də olsa Qarabağın abhavası var. Çoxsaylı müğənnilər və xanəndələr arasında öz istedadı, dəsti-xətti, bulaq suyu kimi təmiz, dağ çiçəyi kimi incə səsi, uğurlu fəaliyyəti və ictimaiyyət arasında şəxsi nüfuzu olan Süleyman Abdullayev kimi səsinə söykənib yaşayan xanəndələrin millətimizin nümayəndəsi olması sözün əsl mənasında xoşbəxtlikdir. İnsanın gözəlliyi, daxili aləminin zənginliyi cizgilərində dolğunluğu ilə öz əksini tapmışdır. İnsanda yüksək əxlaqı-keyfiyyəti təlqin edən və öz tərbiyəvi əhəmiyyətini qoruyub-saxlayan bu səs çağdaş musiqimizin ən gözəl nümunələri kimi diqqəti cəlb edir.

Azərbaycanın ecazkar səsli xanəndəsi S.Abdullayev indiyə kimi dünyanın bir çox yerlərini, Azərbaycanın isə bütün bölgələrini gəzib, saysız-hesabsız görüşlər keçirib, çoxlu sayda toylar yola verib, yüzlərlə tədbirdə iştirak edib. Məlahətli səsi ilə, məzmunlu çıxışları ilə auditoriyanı lərzəyə gətirib. Bir qayda olaraq onun ifa etdiyi mahnı və təsniflər dinləyicilərə güclü təsir edib.

### *Yeri gəlmişkən*

1972-ci ildə Şuşa Pedaqoji Məktəbində oxuduğum zaman maraqlı bir hadisənin şahidi oldum. Mən üç nəfərlə ”Şuşa” qəzetinin müxbiri və şöbə müdiri Ülfət Muxtarovun evində qalırdım. Ağdam, Laçın və Qubadlı rayonundan olan bu uşaqlardan biri mənim qrup yoldaşım, digər ikisi isə bizdən bir kurs yuxarıda oxuyan dostlarım idi.

**(ardı gələn sayımızda)**

**Faiq ŞÜKÜRBƏYLİ,**
**Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü**